BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# AĞIR CİNAYƏTLƏRDƏ İTTİHAM EDİLƏN ERMƏNİƏSİLLİ ŞƏXSLƏR ÜZƏRİNDƏ ƏDALƏT MƏHKƏMƏSİ: FƏRDİ VƏ DÖVLƏT MƏSULİYYƏTİ KONTEKSTİNDƏ

Zaur Əliyev

Şəhla Səmədova

Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

MART 2025

**AĞIR CİNAYƏTLƏRDƏ İTTİHAM EDİLƏN ERMƏNİƏSİLLİ ŞƏXSLƏR ÜZƏRİNDƏ ƏDALƏT MƏHKƏMƏSİ: FƏRDİ VƏ DÖVLƏT MƏSULİYYƏTİ KONTEKSTİNDƏ**

XX əsrin son onilliyində Ermənistan dövlətinin, onun silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının ərazisinin bir qismi 28 ildən yuxarı işğal altında qalmış, Azərbaycan vətəndaşlarına qarşı insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən də "cinayətlərin cinayəti" sayılan soyqırım cinayəti törədilmişdir. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən başlanan cinayət işləri üzrə təqsirkarlar və zərərçəkmişlər müəyyən edilmiş, cinayət işləri üzrə bütün prosessual tədbirlər keçirilmiş, yetərincə sübutlar toplanmışdır. Lakin cinayətkarların bir qisminin işğal olunmuş ərazilərdə, digər qisminin isə Ermənistan da daxil olmaqla müxtəlif xarici dövlətlərdə yaşaması və Azərbaycanın ekstradisiya tələblərinin uzun illər ərzində yerinə yetirilməməsi səbəbindən təqsirkarlar cinayət məsuliyyətindən yayınmış və cəzasız qalmışlar.

Azərbaycan Respublikası BMT Nizamnaməsinin 51-ci maddəsi əsasında 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən əks-hücum əməliyyatı ilə Ermənistanın təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında olan ərazilərini azad etmişdir. Onu da qeyd edək ki, dövlət ərazi bütövlüyünü və konstitusion quruluşunu qorumaq məqsədilə öz ərazisi sərhədlərində qeyri-qanuni silahlı birləşmələrə qarşı (bu, separatçıların özünü müəyyənetməsi ilə bağlı olsa belə) silahlı qüvvələrindən istifadə edirsə, bu təcavüz aktı kimi qəbul edilmir.

II Qarabağ müharibəsində əldə edilən qələbə və 2023-cü il sentyabrın 19–20-də keçirilən uğurlu antiterror əməliyyatı sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsi və suverenliyi işğaldan azad edilmiş bütün ərazilərdə təmin edilmiş və müxtəlif dövrlərdə törədilən cinayətlərə görə 16 şəxs Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müxtəlif maddələri üzrə cinayət məsuliyyətinə cəlb edilmişdir. Bütün hüquqi-prosessual tələblər yerinə yetirildikdən sonra onlar Bakıda məhkəmə qarşısına çıxarılmışlar. Qeyd edək ki, Bakıda keçirilən ədalət mühakiməsi həmçinin beynəlxalq ictimaiyyətin də diqqətindədir.

O da qeyd edilməlidir ki, beynəlxalq platformalarda bu diqqət bir çox hallarda Bakıda keçirilən məhkəmə prosesinə qeyri - obyektiv yanaşmalarla müşahidə edilir. Bəzi dairələr ədalət məhkəməsi ətrafında siyasi ajiotaj yaratmağa, əsaslı sübutlarla ağır cinayətlərdə təqsirləndirilən şəxsləri "siyasi məhbus", "girov" kimi təqdim etməyə çalışırlar. Və yaxud, təqsirləndirilən şəxslərin "işgəncələrə", "zorakılıqlara" məruz qalması ilə bağlı beynəlxalq mediada böhtan kampaniyası aparırlar. Həmçinin, müxtəlif ölkələrdə yaşayan erməni diaspor qrupları Bakıda məhkəməsi keçirilən

keçmiş qondarma rejimin nümayəndələrinin müdafiəsi ilə bağlı etiraz aksiyaları keçirərək beynəlxalq ictimai rəydə yanlış təsəvvürlər yaratmağa cəhd edirlər[1]. Artıq görünən odur ki, müəyyən beynəlxalq strukturlar aparılan fəal kampaniyanın və digər amillərin təsiri ilə ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin müdafiəsi ilə bağlı bəzi əməli addımlar atmaq niyyətindədir. Məsələn, Avropa Parlamentinin bir qrup deputatı həbsdə olan erməniəsilli şəxslərin Bakıda “zorakılığa”, “işgəncələrə” məruz qalmasından “narahat olaraq” bu məsələni Avropa Parlamentinin müzakirəsinə çıxarmaq niyyətində olduğunu bildiriblər[2]. Son zamanlar Ermənistan hakimiyyəti də əvvəlki susqunluğunu pozaraq Bakıda həbsdə olan keçmiş qondarma rejimin nümayəndələrinin müdafiəsi ilə bağlı açıqlamalar verir. Fevralın 28 – də Ermənistan Xarici İşlər Nazirliyi açıqlama yayaraq bildirib ki, Bakıda məhkəməsi keçirilən şəxslər əsassız olaraq həbsdə saxlanılır, onların fundamental hüquqları pozulur və bu səbəbdən də beynəlxalq ictimaiyyət erməniəsilli şəxslərin azad olunmasına diqqət yönəltməlidir[3]. Ermənistan xarici işlər naziri A.Mirzoyan da həbsdə olan keçmiş qondarma rejim nümayəndələrini azad olunmasını hökumətinin prioritetlərindən biri olduğunu bəyan edib[4]. Ermənistan Baş naziri N.Paşinyan da açıqlama verərək bildirib ki, Bakıda “qanunsuz” olaraq həbsdə saxlanılan erməniəsilli şəxslərin azad olunması məsələsi hər zaman onun diplomatik gündəliyində olub. N.Paşinyan fikirlərinə əlavə olaraq qeyd edib ki, sadəcə olaraq o, əvvəllər vəziyyəti təhlükəyə atmamaq üçün məsələ ilə bağlı hər hansı ictimai açıqlamadan çəkinib, lakin indi "işgəncə və təzyiqlərə" görə fikrini bildirir[5]. Fikrimizcə, son zamanlar Ermənistan hakimiyyətinin Bakıda həbsdə olan erməniəsilli şəxslərin müdafiəsi ilə bağlı fəallaşmasının əsas səbəblərindən biri bu şəxslərin məhkəmədə verdiyi ifadələrdir. Məhz məhkəmədə verilən bu ifadələr Ermənistan Respublikasının ağır beynəlxalq cinayətlərdə məsuliyyət daşıması ilə bağlı əsaslı faktları ortaya qoyur. Hesab edirik ki, təqsirləndirilən şəxslərin məhkəmədə verdiyi ifadələrdən bəzilərinə nəzər salmaq burada yerinə düşər. Qondarma rejimin başçısı olmuş Arayik Harutyunyan məhkəməyə ifadəsində bildirib ki, Azərbaycana qarşı hərbi cinayətlərin törədilməsi əmrini o yox, Ermənistan hakimiyyəti verib. O deyib ki, qondarma rejim bütün əmrləri rəsmi İrəvandan alıb, “Qarabağın müdafiəsi ordusu” birbaşa Ermənistanın Müdafiə Nazirliyinin tabeliyində olub[6]. A.Harutyunyanın və digər şəxslərin məhkəmədə verdiyi ifadələrdən bir daha aydın olur ki, Ermənistan işğal olunmuş ərazilərimizdə törədilən hərbi cinayətlərdə birbaşa iştirak edib. Bir vacib məqamı əlavə etmək istərdik ki, hələ işğal dövründə də Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində törətdiyi hərbi cinayətlərlə bağlı etibarlı, mötəbər beynəlxalq sənədlər mövcud olmuşdur. Bu sırada, xüsusilə 2019 – cu ildə Azərbaycan hökumətinin xahişi ilə nüfuzlu beynəlxalq

[1]https://arminfo.info/full_news.php?id=89651
[2] https://armenpress.am/ru/article/1213694
[3] https://arminfo.info/full_news.php?id=89445
[4] https://armenpress.am/ru/article/1213667
[5] https://rus.azatutyun.am/a/33332798.html
[6] https://qafqazinfo.az/news/detail/separatcilar-ifade-verdi-fotolar-463540

hüquq üzrə xarici mütəxəssislərdən ibarət qrupun hazırladığı və "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilən hərbi cinayətlər və Ermənistan Respublikasının məsuliyyəti" [7] adlı hesabatı qeyd etmək olar. Hesabatda işğal olunmuş Azərbaycan ərazilərində törədilən hərbi cinayətlərdə Ermənistanın dövlət olaraq iştirakı faktlarla, hüquqi istinadlarla geniş şərh və təsdiq edilir. Qeyd edək ki, bu hesabatla bağlı Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi 2020 – ci il fevralın 3 – də təşkilatın Baş Katibinə məktub ünvanlamışdır.

Ümumiyyətlə, son zamanlar Ermənistan hakimiyyətinin keçmiş qondarma rejim təmsilçilərinin məhkəmə prosesi ilə bağlı nümayiş etdirdiyi mövqeni bir tərəfdən onların hüquqi - siyasi məsuliyyətdən yayınmaq istəyi kimi qiymətləndirməklə yanaşı, həm də N.Paşinyan hökumətinin sülh prosesinə zərbə cəhdi kimi də dəyərləndirmək olar. Azərbaycan dövlətinin, xalqının indiki mərhələdə Ermənistan hökumətindən əsas gözləntisi və tələbi onların keçmişin ağır mirasından qurtularaq müharibə cinayətləri ilə bağlı Azərbaycan hüquq – mühafizə orqanları ilə yaxından əməkdaşlıq etməsidir. Ancaq görünən odur ki, N.Paşinyan hökuməti bu məsələdə tamamilə fərqli yol seçib və bu yol heç bir halda iki xalq arasında davamlı sülhün əldə edilməsinə xidmət etmir. İstənilən halda, N.Paşinyan hökumətinin və onları himayə edən güc mərkəzlərinin, erməni diaspor qruplarının Bakıda keçirilən ədalət məhkəməsi ilə bağlı beynəlxalq ictimai rəyi aldatmağa yönələn qarayaxma, böhtan kampaniyası hüquqi reallıqları dəyişmir. Bu hüquqi reallığı isə qısa olaraq belə təfsir etmək olar : işğal dövründə Azərbaycan torpaqlarında törədilmiş hərbi, insanlıq əleyhinə və digər cinayətlərə görə Ermənistan həm dövlət olaraq, həm də ağır cinayətlərdə ittiham edilən şəxslər, bəzi erməni rəsmiləri fərdi olaraq məsuliyyət daşıyır.

Keçmiş qondarma rejim nümayəndələri üzərində Bakıda keçirilən ədalət məhkəməsinin əsas məqamlarına nəzər salaq. Məhkəmə qarşısına çıxarılan Ruben Vardanyan, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Saakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan, Davit Manukyan, Qarik Martirosyan, Melikset Paşayan, Davit Allahverdiyan, Qurqen Stepanyan, Levon Balayan, Madat Babayan, Vasili Beqlaryan, Erik Qazaryan və onlardan əvvəl saxlanılan və artıq məhkum olunmuş Vaqif Xaçaturyan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100-cü (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102-ci (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103-cü (soyqırım), 105-ci (əhalini məhvetmə), 106-cı (köləlik), 107-ci (əhalini deportasiya etmə və məcburi köçürmə), 109-cu (təqib), 110-cu (insanları zorakılıqla yoxa çıxarma), 112-ci (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113-cü (işgəncə), 114-cü (muzdluluq), 115-ci (müharibə qanunlarını və adətlərini pozma), 116-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118-ci (hərbi soyğunçuluq), 120-ci (qəsdən adam öldürmə), 192-ci (qanunsuz sahibkarlıq), 214-cü (terrorçuluq), 214-1-ci (terrorçuluğu

[7] Letter to UNSG on war crimes report A-74-676 Eng.pdf

maliyyələşdirmə), 218-ci (cinayətkar birlik yaratma), 228-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1-ci (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277-ci (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278-ci (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə ittiham olunurlar.

Sadalanan maddələrdən də göründüyü kimi, törədilən əməllərin əksəriyyəti sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edən beynəlxalq cinayətlər (mad.100-118), beynəlxalq münasibətlərin müxtəlif sahələrinə qəsd edən beynəlxalq xarakterli cinayətlər (mad. 214, 214-1, 218, 228, 270-1), şəxsiyyət əleyhinə olan cinayət (mad.120), iqtisadi fəaliyyət sahəsində olan cinayət (mad.192) və dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdir (mad.277, 278, 279, 318).

Beynəlxalq cinayətlərin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, onlar dövlətlər və ya dövlətlərin rəsmi nümayəndələri tərəfindən cinayətkar məqsədlər üçün dövlət mexanizmindən istifadə etməklə törədilir. Bu cinayətlər beynəlxalq ümumi hüququn subyekti kimi dövlətin beynəlxalq-hüquqi məsuliyyətinə və beynəlxalq və ya milli yurisdiksiya çərçivəsində təqsirkar fiziki şəxslərin fərdi cinayət məsuliyyətinə səbəb olur.

İşğal dövründə Ermənistan Respublikası və keçmiş qondarma rejimin nümayəndələri Azərbaycan ərazilərində beynəlxalq hüququn, xüsusilə də beynəlxalq humanitar hüququn normalarını kobud surətdə pozublar. Bu sırada ilk olaraq 12 avqust 1949 – cu ildə qəbul edilmiş Cenevrə Konvensiyalarını qeyd etmək olar. Haşiyəyə çıxaraq əlavə edək ki, Ermənistanın da qoşulduğu Cenevrə Konvensiyaları və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. Bu Konvensiyalarda qeyd edilən "beynəlxalq humanitar hüququn ciddi pozuntuları" (*grave breaches*) BCM-nin Roma Statutunun 8-ci maddəsində müharibə cinayətləri sistemində ən ağır əməllərdir. Qeyd edək ki, Bakıda keçirilən ədalət mühakiməsində keçmiş qondarma rejimin nümayəndələrinə yönələn ittihamların əhəmiyyətli hissəsi beynəlxalq humanitar hüququn pozulması ilə bağlıdır.

Müasir zamanda beynəlxalq cinayətlərin tam dairəsi, təsnifatı və hüquqi statusu Beynəlxalq Cinayət Məhkəməsinin 1998-ci il tarixli Roma Statutunda müəyyən olunub. Azərbaycan Respublikasının cinayət hüququnda beynəlxalq cinayətlər ilk dəfə olaraq 30 dekabr 1999-cu ildə qəbul edilən və 1 sentyabr 2000-ci ildən hal-hazıra kimi qüvvədə olan Cinayət Məcəlləsində kriminallaşdırılmışdır. Baxmayaraq ki, Azərbaycan Roma Statutunu ratifikasiya etməyib, postsovet məkanındakı dövlətlər ilə müqayisədə

beynəlxalq cinayətlərin ən dolğun dairəsi, təsnifatı və müvafiq beynəlxalq-hüquqi normalara tam uyğunluğu məhz Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən edilib. Bu hal Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin nailiyyəti kimi qiymətləndirilə bilər və obyektiv cəhətdən onunla əsaslandırılır ki, təəssüf ki, yeni cinayət qanunvericiliyi qəbul edilərkən artıq Azərbaycan ərazisində və Azərbaycan xalqına qarşı beynəlxalq cinayətlər kimi tövsif olunan cinayətlərin bütün növləri törədilmişdir: təcavüz cinayəti (mad.100), soyqırım (Xocalı şəhəri, Kərkicahan qəsəbəsi və Bağanis-Ayrım, İmarət Qərvənd, Meşəli, Ballıqaya, Malıbəyli, Kosalar, Yuxarı və Aşağı Quşçular, Qaradağlı, Ağdaban və digər onlarla kəndlərdə əksəriyyəti uşaqlar, qadınlar və qocalar olan mülki əhalinin etnik, milli və dini mənsubiyyətinə görə məhv edilməsi – mad.103), insanlıq əleyhinə cinayətlər (mülki əhaliyə qarşı geniş-miqyaslı və ya sistematik hücumların tərkib hissəsi olan müxtəlif zorakı əməllər – mad.105-113), müharibə cinayətləri (istər beynəlxalq, istərsə də daxili silahlı münaqişə zamanı hərbi əməliyyatların planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması ilə əlaqədar olaraq törədilmiş əməllər -mad.114-119). Onu da vurğulayaq ki, Ermənistanın 2024-cü il fevralın 1-dən BCM-nin yurisdiksiyasını tanıyıb.

Beynəlxalq cinayətlər hamısı mürəkkəb tərkibli (iki obyektli, obyektiv cəhətləri alternativ hərəkətlər və ya bir necə nəticədən ibarət olan və s.), davam edən və ya uzanan əməllərdir. Cinayət Məcəlləsinin VII bölməsinin bütün normalarının dispozisiyaları blanket xarakterlidir və buna görə də bu və digər tərkibin obyektiv cəhətini aydınlaşdırmaq məqsədi ilə transmilli cinayət hüququnun müvafiq normalarına istinad etmək gərəkdir, bu əməllər subyektiv cəhətdən təqsirin qəsd forması ilə xarakterizə olunur.

Ruben Vardanyan, Arayik Arutyunyan, Arkadi Qukasyan və digərləri tərəfindən törədilmiş beynəlxalq cinayətlərə münasibətdə universallıq (Cinayət Məcəlləsinin 12.3-cü mad.), cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçməsinin tətbiq edilməməsi (Cinayət Məcəlləsinin 75.5-ci mad.), habelə cinayət qanununun geriyə şamil olma qüvvəsi (12 may 2006-cı il tarixli Konstitusiya Qanunu) prinsipləri tətbiq olunur. Qeyd edək ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə beynəlxalq cinayətlərin statusunu təşkil edən bu prinsiplər həmçinin terrorçuluq və terrorçuluğu maliyyələşdirmə (mad.214 və 214-1) kimi beynəlxalq xarakterli cinayətlərə münasibətdə də tətbiq olunur, bununla da beynəlxalq hüquqdan fərqli olaraq milli qanunvericilik üzrə bu iki əmələ beynəlxalq cinayətlərin statusu verilir. İttiham olunan bütün digər beynəlxalq xarakterli cinayətlərə münasibətdə yalnız universallıq prinsipi şamil olunur.

İttiham aktı üzrə tövsif olunan əməllər (qanunsuz sahibkarlıq və Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə istisna olaraq) ağır və xüsusilə ağır cinayətlər kateqoriyalarına aiddirlər və onlardan 11 əmələ görə (mad.100, 103, 105, 110, 115, 116, 120, 214, 277, 278, 279) qanun cinayət-hüquqi sanksiyada alternativ qaydada ən ciddi cəza növünü – ömürlük azadlıqdan məhrum etmə cəzasını müəyyən edir. Onu da qeyd etməliyik ki, təqsirləndirilən şəxslər hökm

çıxarılanadək altmış beş yaşına çatdıqda onlar ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmurlar.

Xüsusilə qeyd olunmalıdır ki, Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri və digər ağır cinayətlərdə təqsirləndirilən Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir. Qarşı tərəfin əsassız iddialarına baxmayaraq, bu iş üzrə hüquqi məsuliyyət məsələsinin həlli beynəlxalq və milli-hüquqi normalar baxımından zəruridir. Belə ki, BMT Baş Assambleyasının 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərin, bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsiri olan şəxslərin məhkəmə təqibinin və cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlərin vaxtından və harada törədilməsindən asılı olmayaraq ibtidai araşdırması aparılmalı, belə cinayətlərin törədilməsində təqsirləndirilən şəxslər həbs edilərək ədalət mühakiməsinin tələblərinə uyğun olaraq cəzalandırılmalıdırlar.

Cari iş üzrə ictimaiyyətə təqdim olunmuş məlumatlardan açıq-aydın görünür ki, ittiham aktında Ermənistan dövlətinin beynəlxalq normalara zidd şəkildə yaradılmış cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində Azərbaycan Respublikasının vaxtilə işğal altında olan suveren ərazilərinin minalanması, əsir düşmüş və girov götürülmüş Azərbaycan vətəndaşlarına verilmiş işgəncələr, törədilmiş ayrı-ayrı cinayət faktları, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən antiterror əməliyyatlarının başlanılmasını qaçılmaz edən hallara dair faktlar öz əksini tapmışdır. Bundan əlavə, kifayət qədər sübutlar vardır ki, Ermənistan dövləti vaxtilə işğal etdiyi Azərbaycan Respublikasının suveren ərazilərində yaratdığı və onun nəzarəti altında fəaliyyət göstərmiş qondarma "Dağlıq Qarabağ Respublikası"nı və onun qanunsuz silahlı birləşmələrini Ruben Vardanyan və digərləri vasitəsilə ümumilikdə 160 ədəd müxtəlif növ zirehli döyüş texnikası, 16.805.903 ədəd müxtəlif növ atıcı silah, onun komplekt hissələri və döyüş sursatları, 230 ədəd müxtəlif növ minaatan, tank əleyhinə 137 ədəd müxtəlif növ vasitə, 162 ədəd müxtəlif növ artilleriya topu, 3 ayaq radar sistemi və digər növ hərbi texniki əmlaklar, 41 min 522 ədəd müxtəlif növ əl qumbarası, habelə uçuş həyata keçirən təyyarə və digər avadanlıqları hədəfindən yayındırmaq üçün istifadə olunan Radiomaneə kompleksi "Pole-21", naviqasiya və telemetriya siqnallarını susdurmaq üçün istifadə edilən "Repellent-1" radioelektron mübarizə kompleksi ilə silahlandırmışdır.

Qeyd olunanlar Vardanyanın əməllərinin həm Roma Statutunda "bütün beynəlxalq birliyi narahat edən ən ciddi cinayətlər" kimi adlandırılan beynəlxalq cinayətlərin, həm də milli Cinayət Qanunumuzda kriminallaşdırılmış cinayətlərin

tərkib elementlərini ehtiva etdiyini bir daha sübut edir. Ona görə də ilk növbədə, Nürnberq Tribunalının Nizamnaməsinin 6-cı maddəsini, Roma Statutununun müvafiq maddələrini, eləcə də digər beynəlxalq hüquq normalarını nəzərə almaqla, beynəlxalq cinayətlərin törədilməsinə görə fərdi məsuliyyət məsələsi həll olunmalı və təqsirli şəxslər cəzalandırılmalıdır.

Həmçinin, beynəlxalq cinayətlər törətməkdə təqsirləndirilən şəxsləri dəstəkləyən, soyqırımın və təcavüzün dövlət siyasətinin tərkib hissəsi təşkil etdiyi Ermənistan dövləti beynəlxalq-hüquqi məsuliyyətə cəlb edilməlidir. Təcavüz, soyqırım və digər beynəlxalq cinayətlər törətmiş Ermənistan dövləti beynəlxalq birlik qarşısında öhdəliklərini, yəni erga omnes öhdəlikləri pozmuş olub. Beynəlxalq hüquqa əsasən, beynəlxalq cinayət törədilərkən həmin cinayəti törətmiş dövlət üçün xüsusi məsuliyyət rejimi ortaya çıxır. Bu rejim adi beynəlxalq hüquq pozuntusu törədildiyi zaman meydana çıxan beynəlxalq məsuliyyət rejimindən fərqlənir, əgər birinci halda söhbət dəymiş zərərin sadəcə ödənilməsindən gedirsə, ikinci halda isə zərərin ödənilməsindən əlavə, cinayəti törətmiş dövlətin suverenliyinin və beynəlxalq hüquqi subyektliyinin müxtəlif cür məhdudlaşdırılması mümkün ola bilər. Məsələn, İraqın Küveytə qarşı təcavüzündən sonra BMT Təhlükəsizlik Şurası 687 saylı qətnaməsində müəyyən etdiyi bir sıra tədbirlərlə İraqın suverenliyini əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdı. Beynəlxalq cinayət törədilərkən müvafiq dövlətin məsuliyyəti ilə yanaşı, habelə həmin cinayətin törədilməsində təqsirli olan fərdlərin beynəlxalq cinayət məsuliyyəti də ortaya çıxır. Beynəlxalq cinayət törədilməsinə görə dövlətin vəzifəli şəxslərindən başqa, adi şəxslər də məsuliyyətə cəlb oluna bilərlər.

Beləliklə, qeyd olunanlar ittiham olunan şəxslərin işi üzrə respublikamızın cinayət təqibi orqanlarının ədalət mühakiməsinin prinsiplərinə və beynəlxalq normalara uyğun fəaliyyət göstərməsini bir daha təsdiq edir, qeyd olunan cinayətlərin törədilməsində təqsiri olan şəxslərin ədalətlə cəzalandırılacağına dair mühakimə yürütməyə imkan verir. Həmçinin, müasir beynəlxalq hüquq Ermənistan dövlətinin də beynəlxalq hüquqi məsuliyyətini zəruri edir.

**Müəlliflər:**

**Zaur Əliyev, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent**

**Şəhla Səmədova, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor**

**Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**